## Allahşükür Ağa



### Tüstülərdə göz yaşı

Bacalardan qalxan tüstülər
meşələrin ahıdır, bəlkə.
Ona görə özlərini dumana bənzətməklə
Ovunmaq istədilər bir az...

Ağacların gələcəyidir tüstülər,
Hər gün meşələrin üstündə dayanıb,
Əl eləyirlər,
bir az susurlar.

Yenə dumanda bir az göz yaşı var,
Bir az yaşla sevinir adamın gözü.

Amma
Göz yaşı da yanıb
Bu tüstülərin.
Adamın gözündən dartıb
Yaşı da çıxarır hələ.
Biz neylədik, insanlar,
Göz yaşlarını yandırıb
Qızınmaqmı olar?

### Çiçəklər, əllər

Məncə, çiçəklərin
Ən gözəl xatirəsi sənin əllərindi.
Həm çiçəyə bənzəyir,
Həm də boş qalıb indi
Çiçəklərin  yuvası kimi.

Əllər daha çox ağlayır, məncə,
Çünki əllərini  bəzəyən güllər
Bir azdan zibil qabını
Eyni ahənglə sevindirəcək.

İndi çiçəkmi vəfasızdı, yoxsa əllər?
Məncə, çiçəklər.
Əvvəl  torpağı sevindirdi,
Sonra qonşunun uşağını.
Sonra bülbülü,
Sonra sənin əllərini,
İndi də zibil qabını.

Arxasınca ağlayan xatirələr,
Çiçəklərin ayağının tozudur,
Məncə.

### Ayaqlarımın qandalıdı araba

Atların  ayaqları  yolları
Oxuyar,
Ayrı düşən yolları
Bir-birinə toxuyar.

Atların ayaqlarında
Qanadların hirsi var deyə
Hərdən özünü qanadlara bənzətmək istər
ayaqlar.
Deyək ki, tövlənin bir deşiyindən baxan
İnsan gözlərindən yanan qanadlar
İndi atın çiynində deyil
Altındadı,
Çıxa da bilər nə vaxtsa çiyinlərə...

Bax, kəndimizdə arabaya qoşulan bir at
Dünən

Ayaqlarını göstərirdi mənə,
Demək istəyirdi ki, qanadlarımı
Aldınız, yaxşı elədiniz
İndi də  ayaqlarımı istəyirsiniz.
Ayaqlarımın qandalıdı
Araba.

### Çayda balıq nağılı

Çayların səsi
İçindəki balıqların səsidir,
Balıq tuturam, deməyin,
Səs tuturam çaydan, deyin...